# Qadınların bayramı

Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, müstəqil Azərbaycanın qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov ilk növbədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban xanım Əliyevanın timsalında bütün Azərbaycan qadınlarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edib. O, qeyd edib ki, Azərbaycan qadını tarix boyu öz müdrikliyi, mərhəməti, vətənpərvərliyi və fədakarlığı ilə cəmiyyətimizin dayağı olmuşdur. Bu gün də qadınlarımız dövlət quruculuğunda, ictimai-siyasi həyatda, təhsildə, səhiyyədə və digər sahələrdə fəal iştirak edirlər. Yeni Azərbaycan Partiyasının sıralarında təmsil olunan xanımlarımız da daim yüksək fəallıq nümayiş etdirir, milli dəyərlərimizin qorunmasına və dövlətimizin siyasətinin həyata keçirilməsinə layiqli töhfə verirlər. Daha sonra tədbirdə iştirak edən qadınlara Yeni Azərbaycan Partiyasının fəaliyyətində fəal iştirakına görə Fəxri Fərman, bayram münasibətilə isə hədiyyələr təqdim edilib. Tədbirin sonunda qadınlar adından çıxış edən Arifə Bayramova göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığını ifadə edib. O, ölkəmizdə qadınlara verilən yüksək dəyəri xüsusi vurğulayaraq, Azərbaycanın daha da çiçəklənməsi naminə və partiyanın fəaliyyətində bundan sonra da əzmlə çalışmağa davam edəcəklərini bildirib.



# Haray çəksən qayalarda səslənər adın...

(Əvvəli 5-ci səhifədə).

param-parça oldu. İşğalçı mənfur qonşumuz və onun havadarlarının dəstəyi ilə 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu.



Sanki arzuları da çiləkləndi... Ancaq atası Həsən Quliyev ziyalı idi və bu çətin, acılı bir dövrdə də qızının təhsil almasına şərait yaratdı. Ramella xanım ailəsi ilə birgə Bakı şəhərində məskunlaşdılar. O, 1992-ci ildə BakıDövlət Universitetinin (BDU) tarix fakultəsinə qəbul olundu. O, 1997-ci ildən 2001-ci ilədək Bakı şəhər Suraxanı rayonu 141 saylı məktəbdə tarix müəllimi kimi fəaliyyətə başladı. 2022-ci ildə Qarabağ Regional Təhsil İdarəsinin müdiri Gündüz Əbdülovun əmri ilə Qəbələ şəhərində məskunlaşmış şuşalı sakinlər üçün 1993-cü ilin sentyabrında fəaliyyətə başlamış Şuşa rayon 24 saylı ümumi orta məktəbdə Uşaq və Gənclər Birliyi vəzifəsinə təyinat alaraq əmək fəaliyyətini davam etdirir. Ramella xanım fəaliyyətə başlarkən ölkə Prezidenti İlham Əliyevin: "Mən istəyirəm gənclərimiz elmi, peşəkar bilikli olmaları ilə yanaşı vətənpərvər olsunlar, Vətən sevgisiylə böyüsünlər" fikirlərini əsas tutaraq gənclərimizə vətənpərvərlik, milli-mənəvi zənginlik ruhunun aşılanması istiqamətində, gənc nəslin ölkəyə layiqli vətəndaş kimi yetişməsi üçün daima çalışmışdır və çalışır. Bu işi həmişə özünə bir ziyalı kimi müqəddəs borc sanır.

**"Şuşasız" Şuşalı illər**

Yaşadığı ömrün yaş tsiklində şuşalı olub Şuşasız yaşadığı illər daha çoxdur Ramella xanımın. Ancaq bu ilk baxışda. Çünki hər səhərin açılması, hər günəşin çıxması, ulduzların, ayın görünməsi, hər yağış, duman, qar, şaxta onu Şuşa dağlarına qəlbən aparmış, ömrünün acılı-şirinli hər anında gözəl Şuşa öz əsrarəngiz gözəlliyi ilə onun göz önündə, qəlb çırpıntısında olmuşdur. Ona görə də Məmməd Arazın şeirlərindən birində deyildiyi kimi;

***Yüyür mənsiz dağlaracan,***
***buludlaracan,***
***Haray çəksən, qayalarda***
***səslənər adım...***

Bəli, Ramella xanım qəlbən həmişə Şuşanı qarış-qarış gəzmiş, onun intizarını çəkdiyi 28 ilin Şuşasız çağlarının acısını qəlbinə gömsədə, nə vaxtsa "əsir düşən" evlərinin, torpağının qoxusunu duyacağı, o torpaqda qarış-qarış gəzəcəyi ümidi ilə yaşamışdır. Əzizlərinin yurd həsrəti qəlbini acıtsa da, övladlarına və şagirdlərinə öz doğma el-obasına qayıdacağı, əsir olan torpaqlarımızın azad olacağı inamını təlqin etmiş, inandırmışdır. Çünki o, azərbaycanlı oğulların igidliyinə həmişə inanmışdır.

**Ümumi məfhum və onun əvəzolunmazlığı**

Vətən bir milətin varlığı deməkdir. Millət isə xalqdır, xalq isə vətənsevər insanların vəhdətidir. Bu vəhdət özülü möhkəm, qayəsi bir olarsa heç vaxt sarsılmaz! Azərbaycan tarixən qəhrəman bir xalqın aid olduğu ölkədir. Onun igid oğulları həmişə xalqın, Vətənin, torpaqlarının müdafiəsində olmuş və müdafiəsindədir. Buna ən son nümunə Zəfər tariximizdir. 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük müharibə 30 illik bir müddətdə əsir olan torpaqlarımızı döyüş yolu ilə, ermənilərə və onun havadarlarına "tarixi dərs" verərək Zəfərlə sona yetdi. Torpaqlarımız azad olundu. Artıq "qaçqın", "köçkün" olan ailələrimiz öz doğma yurdlarına qayıdırlar. Yağmalanaraq xarabalığa çevrilmiş şəhər və kəndlərimiz müasir zamanın tələblərinə uyğun şəkildə yenidən qurulur və öz doğma sakinlərinə təhvil verilir. Ramella xanım və onun əzizləri də doğma Şuşalarına dönəcəyi günü böyük intizarla gözləyirlər.

Vətən bölünməz, torpaqdan pay olmaz, Vətən sözü əvəzolunmazlıq mənasını ifadə edər.

**Hər kəs gücü müqabilində**

Vətəni sevən hər kəs öz gücü, qüvvəsi müqabilində daima Vətəninə xidmət edər, Vətənin müsəlləh əsgəri kimi onun müdafiəçisi olar. Ramella xanım məhz Vətəninin "müsəlləhəsgəri"dir. Torpaqlarımızın 20 faizinin işğal altında olduğu dövrdə də, torpaqlarımız azad olunduqdan sonra da o, təbliğat və təsviqat işlərini davam etdirmişdir. Müharibədə şəhid olan igidlərimizin ailələri ilə tez-tez görüşmüş, şəhid ailələrini və məzarlarını ziyarət etmiş, sağlamlığını itirən qazilərimizlə məktəblilərin görüşlərini keçirmişdir. Şəhadətə qovuşmuş Qəbələ şəhidlərinin mövludunda və anım tədbirlərində ədəbi-bədii kompozisiyalar təşkil edərək, məktəblilərlə birlikdə tədbirlərdə fəal iştirak etmişdir. İştirak etdiyi vətənpərvərlik tədbirlərində Ramella Quliyevanın Şuşa məktəbini təmsil edərək şagirdləri ilə birlikdə hazırladığı bədii kompozisiyalar, şer və səhnəciklərin təqdimatının dəfələrlə şahidi olmuşam. Ramella xanım şəhidlərimiz haqda yazılmış kitabları Qarabağ torpaqlarını səyahət edərkən özü ilə apararaq kitabların da səyahətini təşkil edərək şəhid ailələrinə hədiyyə etmişdir. Onun tədbirlərdə Vətən və şəhid yangısı ilə etdiyi çıxışlar hər kəsin yaddaşında öz əksini tapmışdır.

Ramella xanım vətənpərvər, milli mənəviyyatı zəngin biridir. Onu rayonumuzun ziyalıları, eləcə də vətənpərvər insanları məhz buna görə həmişə sevir və hər bir tədbirdə onun xüsusi yeri olduğunu söyləyir.

Vətənpərvərlik yalnız döyüşlərdə deyil, insanlığa xas bütün əməllərdə hiss olunmalıdır, məhz Ramella Həsən qızı Quliyeva kimi. İşlərin daima uğurlu, vətənpərvərlik ideyaların zəngin olsun, Vətən qızı!

**BIBIXANIM.**

# Yazıram, izim qala...

**Tərbiyə ailədən başlar**

İnsanın üzündə olan nur hələ körpəlikdən hiss olunur. Körpə bir mələk "donunda", ancaq baxışları işıq seli kimi ürəklərə dolar. Yavaş-yavaş dil açdıqca səsinin ahəngi, sözlərinin deyiliş tərzi, atdığı hər addım, ailədə eşitdiyi kəlmələr, gördüyü davranış onun xarakterinin formalaşmasında özül sayılar. Məktəb illərində müəllim və şagird kollektivindən aldığı təəssüratlar, müəllimlərinin tədris və tərbiyəsi xüsusilə hər bir körpənin özünəxas xüsusiyyətlərini daha da möhkəmləndirər.

Ailədə halallıq zəminində qarşılaşdığı çətinliklər özünüdərki gücləndirər və vətənpərvərlik, milli mənəviyyat, vicdani duyğular belə uşaqlarda xarakterləşər.

Yaş yaş üstə gəldikcə ana, ata və müəllim məsləhətləri, təlim-tərbiyəsi həmçinin hər bir fərdin ətraf mühiti dünyagörüşün formalaşmasına anlaşılacaq və dərk olunacaq səviyyədə təsir edir. Nə xoş ki, valideyn və müəllim arasında daimi əlaqə olur və bu zaman böyüyən yeniyetmə həmişə kamilliyə can atır.

Mehman müəllimi illər öncə tanıyırdım. Bacım və qardaşım musiqi məktəbində oxuduğu illərdə həmin məktəbin təşkil etdiyi bir çox tədbirlərin iştirakçısı olmuşdum və bacımın musiqi müəllimi Mehman Quliyev olmuşdu. Peşəsini sevən, şagirdlərinə hörmət və qayğı ilə yanaşan bir insandır Mehman müəllim.

İllər sonra savadlı, əsl azərbaycanlılara xas olan bütün xüsusiyyətlərin cəmləşdiyi bir gənc xanım kimi tanıdığım İlhamə Seyidovanın Mehman müəllimin qızı olduğunu öyrənəndə təəccüblənmədim. Demək elə bir ailənin belə də övladı olmalı idi...

**Müsbət auraçılıq**

Rayonumuzda fəaliyyət göstərən Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyi ta yaradıldığı ildən rayon sakinlərinin, rayonumuza gələn qonaqların həmişə nəzər diqqətini çəkmişdir. Bu muzey Qəbələ tarixinə aid bir məktəb, bir elmi müəssisə sayılmışdır. Bu isə təsadüfi deyildir. Muzeydə toplanılan vəsaitlər hər il öz sayını artırır və onların düzülüş, yerləşdirilməsi tərzi qədim şəhərimizin qonaqları tərəfindən bəyənilirdi. Həmçinin burada çalışan hər bir əməkdaş, hər bir bələdçi bu eksponatlar haqqında oxuyur, öyrənir, tamaşaçılara zəngin məlumatları öz bilik və bacarıqları ilə birbəbir izahlı şəkildə çatdırırdılar. Məhz öz bacarığı ilə fərqlənənlər muzeyin elmi işçisi adını qazanırdılar.

Muzey kollektivi (muzeyin ilk yaradıcısı haqq dünyasına qovuşmuş Xalis Məmmədov olmuşdur), o kollektivin üzvləri qəzet və jurnallarda müntəzəm çıxışlar edirdilər və edirlər. Muzeyin direktoru Bəxtiyar Vəliyevin, Ağgül Ağamoğlanovanın, Həqiqət Rüstəmovanın və başqalarının muzeyin tarixi eksponatları və orada keçirilən tədbirlər haqqındakı qələmə aldığı yazılar xüsusilə rayon qəzetinin səhifələrində çap olunardı. Bax belə imzadan birinin sahibi də İlhamə xanım idi.

İlk baxışdan sakittəbiət bir gənc kimi tanıyırdım. Onun qələmə aldığı hər bir yazı redaksiya kollektivi tərəfindən bəyənilər və bu yazılara demək olar ki, redaktəyə ehtiyac olmur.

İlhamə xanımı tanıyanlar həmişə üzündəki xoş auradan, danışıq tərzindəki qüsursuzluqdan, davranış mədəniyyətindən, ən ümdəsi isə ilk baxışdan insanda xoş təsir yaradan geyim tərzindən qəlbində ona hörmət və ehtiram hissi duyur. Qəzet səhifəsində dərc olunan hər bir yazısı, müxtəlif mövzulara qələmə alınan tezisləri səlis və anlaşıqlı, oxucunu özünə cəlb edə biləcək bir "dildə" yazılır. İlhamə xanım müxtəlif mövzulara toxunar və toxunduğu mövzuları tamlığı ilə əhatə edər. Bu isə onun həm mütaliəçi, həm də məntiqli, duyğusal düşüncə tərzinə malik olduğundan irəli gəlir. Onunla söhbət zamanı da, qələmə aldığı yazıları oxuduqda da insan yorulmur, çünki o, yeknəsəklikdən uzaqdır.

**Ömür yolu**

Həyatı doğru-düzgün dərk edən hər kəs yaşadığı bu günün sabahını düşünər... Görəsən, sabaha bir izim qalacaqmı? İnsanlar arasında yaşadığım ömür necə qiymətləndiriləcək? Axı əsil insan ətraf mühit tərəfindən qiymətləndirilir. Məmməd Arazın şerində deyildiyi kimi:

"Mən... Mən" deyilməz. Hər addımda "mən" düşünülərsə, o insan cılızlaşar.

İlhamə Seyidova 1977-ci il avqustun 16-da Qəbələ şəhərində anadan olmuşdur. 1983-1994-cü illərdə şəhər 1 saylı tam orta məktəbində orta təhsil almışdır.

1995-ci ilin may ayının 15-dən Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində çalışır.

Onun ilk fəaliyyəti rayonumuzun istedadlı rəssamı Faiq Abdullayevin rəsm əsərlərindən ibarət sərginin açılması olmuşdur. Bu tədbirdən sonra muzeyə diqqət və maraq daha da artmışdır. Bu tədbir haqda 1996-cı ildə yerli mətbuatda da xəbər materialı dərc olunmuşdur. İşə bələdçi kimi başlayan İlhamə işinin peşəkarlığına görə 1999-cu il tarixdən elmi işçi vəzifəsinə təyin olunmuşdur.

Rayonun ictimai həyatında və mədəni maarif işi sahəsində fəal xidmətlərinə, öz peşəsinə, vəzifəsinə yaradıcılıqla yanaşan İlhamə dəfələrlə təltif olunmuş, əmək fəaliyyətinin 30 illiyi ilə əlaqədar muzey işindəki fəallığa görə Şəki - Zaqatala Regional Mədəniyyət İdarəsi rəhbərlik və Mədəniyyət işçiləri Həmkarlar İttifaqının Qəbələ Rayon Komitəsi tərəfindən təltif olunmuşdur.

1999-cu il ümumilli lider Heydər Əliyevin müvafiq sərəncamına əsasən, "Kitabi-Dədə Qorqud" dasntanının 1300 illiyi ilə əlaqədar Həmkarlar İttifaqının Olimpiadasında qalib olmuşdur. Azərbaycan Respublikası Prezidenti

(Ardı 7-ci səhifədə).